17 aprel / 2021

Ədəbiyyat QƏZETİ

# *Meksika səfiri Yazıçılar Birliyində*



Meksika Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Rodrigo Labardini Azərbaycan Yazıçılar Birliyində olub. Birliyin sədri, Xalq yazıçısı Anarla görüşən səfir bir müddət əvvəlki görüşü xatırladaraq onunla yenidən görüşməkdən məmnun olduğunu bildirib.

Görüşdə Səfirliyin inzibati işlər üzrə rəhbəri Alejandra Ornelas Soto, AYB Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzinin sədri Səlim Babullaoğlu, Mətbuat xidmətinin rəhbəri Xəyal Rza da iştirak edib.

AYB sədri səfirin yenidən Azərbaycan Yazıçılar Birliyini ziyarət etməsindən məmnunluğunu bildirib. Xalq yazıçısı Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalından, bu işğalın otuz il davam etməsindən, Azərbaycan Ordusunun Qarabağda şanlı zəfərindən söz açıb.

Görüşdə iki ölkənin ədəbi-mədəni əlaqələri müzakirə edilib.

Meksika səfiri bu il 3,4,5 iyun tarixində təşkil ediləcək I Türk Dünyası Ədəbiyyat və Kitab Festivalında (layihə rəhbəri Xəyal Rzadır) ölkəsinin də iştirakı haqqında arzusunu bildirib.

Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzinin sədri Səlim Babullaoğlu Mərkəzin fəaliyyəti və "Dünya ədəbiyyatı" jurnalı haqqında danışıb, səfirə jurnalın bir neçə buraxılışını, eyni zamanda Mərkəz tərəfindən dünya ədəbiyyatı silsiləsindən çap edilmiş yeni kitabları hədiyyə edib.

Görüşdə ədəbi-mədəni əlaqələrin inkişafı etdirilməsi və bu məqsədlə yeni layihələrin həyata keçirilməsi qərara alınıb.

**AYB.az**